# Tələbələr qadınlara qarşı zorakılığın səbəblərindən danışdılar

## “Uşaqlara sevgini, nəvazişi yox, zorakılığı aşılayırıq”

Lalə MUSAQIZI



**Bir neçə gün bundan əvvəl Qəbələdə 3 uşaq anasının həyat yoldaşı tərəfindən xüsusi amansızlıqla öldürülməsi, cəmiyyətdə böyük əks-səda doğurdu. Hadisə mətbuatda, sosial şəbəkələrdə geniş müzakirəyə səbəb oldu. Bu tip hadisələri törədənlər ciddi qınaq hədəfinə çevrildilər. Amma təəssüf ki, cəmiyyətin qınağı da belə olayların qarşısını almaqda acizdir. Qadınlara qarşı zorakılıq demək olar ki, mütəmadi xarakter alır. Cəmiyyət isə ”gündən-günə artan qadın qətllərinin səbəbi nədir, bu cür halların qarşısını almaq üçün nə etməliyik” sualları ətrafında müzakirələri davam etdirir. Mövzunun aktuallığını nəzərə alıb, onu, cəmiyyəti maarifləndirəcək şəxslərlə, sabahın ata və anaları - Bakı Dövlət Universitetinin sosiologiya və psixologiya fakültəsinin dördüncü kurs tələbələri ilə müxtəlif suallar ətrafında müzakirə etdik. Düzdür, fikirlər haçalandı. Amma problemin yaranma səbəbləri, həlli yolları da göstərildi.**

**- Tez-tez həyat yoldaşı tərəfindən döyülərək öldürülən qadınların həyat hekayəsi barədə eşitməli oluruq. Sizcə, bu gün ailələrdə qadınlarımıza qarşı edilən zorakılığın səbəbləri nədir?**

**Turqay Əlisalamzadə: ”Ona sevgini, nəvazişi yox, zorakılığı öyrədirik”**

- Düşünürəm ki, qadın zorakılığı övladlarımıza verdiyimiz tərbiyə ilə birbaşa bağlıdır. Niyə? Çünki biz uşağın hər hansı bir hərəkətindən əsəbiləşərkən, onu döyürük. Döymək bizim tərbiyə vasitələrimizdən biri, bəlkə də birincisidir. Təbii, belə tərbiyə vasitəsilə böyüyən uşaq da gələcəkdə öz həyat yoldaşını döyməyə meyilli olur. Bu gün hansısa ailədə zorakılıq varsa, suç onu vaxtilə döyən valideynlərdədir. Məhz o vaildeynlər ona döyməyi öyrədib, zorakılıq hissi aşılayıblar. Biz uşaqları əzizləyərkən, onu dişləyir, çimdikləyirik. Bu da o deməkdir ki, ona sevgini, nəvazişi yox, zorakılığı öyrədirik.

**Humay Əlizadə: ”Döyülməyə, təhqir olunmağa o qadınlar dözür ki...”**

- Statistika göstərir ki, zorakılığa məruz qalan qadınların çoxu erkən nikaha girənlərdir. Yəni özünü maddi və mənəvi baxımdan dəstəkləyə bilməyən qadınlar təzyiqə daha çox dözürlər. Çünki özlərini buna məcbur hesab edirlər. Əgər bir qadın iqtisadi baxımdan həyat yoldaşından asılı deyilsə, uşağına və özünə baxa bilirsə, döyülməyə razı olmaz. Döyülməyə, təhqir olunmağa o qadınlar dözür ki, başqa çarələri yoxdur, kimdənsə asılı olmağa öyrəşiblər. Əvvəl atadan, qardaşdan, sonra da ərdən....

**Heydər Heydərov: “Bu zorakılıq nəsildən nəslə ötürülür”**

- Zorakılıq uşaq yaşında alınan psixoloji zədədən də qaynaqlana bilər. Evdə ata mütəmadi olaraq ananı döyürsə, uşağın psixoloji zədə alması mütləqdir. Burda iki məqam olur: ya o uşaq baş verənlərdən nəticə çıxarıb, özünü tərbiyələndirir, atası kimi olmamağa çalışır, ya da elə atasına oxşayır. Əslində uşağın özünü tərbiyələndirməsi üçün də onun düşüncə qabiliyyətinin yüksək olması şərtdir. Axı uşaq vaxtı hər kəs atasına oxşamağa çalışır. Uşaqlar atanın etdiyi bütün hərəkətlərin düz olduğunu güman edirlər. Bu prizmadan yanaşsaq, atanın zorakılığından nəticə çıxaran uşaqların çox az olduğu qənaəti formalaşır. Təbii ki, belə olan təqdirdə, atanın zorakılığını nümunə kimi qəbul edənlər çoxluq təşkil edəcək. Beləcə, bu zorakılıq nəsildən nəslə ötürülür. Bunun da məntiqi nəticəsi cəmiyyətdə qadına qarşı zorakılığın tüğyan etməsidir.

**Adəm Paşayev: ”Bunun insanlığa zidd olduğunu bilirlər”**

- Belə mühitdə böyümüş uşaqlar ailə həyatı qurduqdan sonra problemləri həll etmək üçün başlarını işlətməyə ehtiyac duymurlar və ataların getdiyi yola üstünlük verirlər. Əslində, bunun insanlığa zidd olduğunu bilirlər. Amma kiçik yaşlarından beyinlərində hakim olan yanaşma tərzi - ”problemin həlli döyməkdir” düşüncəsi onlara başqa seçim imkanı vermir.

**- Statistika Komitəsinin məlumatına nəzər salsaq, görərik ki, öldürülən qadınların əksəriyyəti qısqanclıq zəminində qətlə yetirilib. Ya həyat yoldaşları, ya qardaşları, nadir hallarda da ataları tərəfindən. Necə düşünürsünüz, qısqanclıq psixoloji xəstəlikdir?**

**Turqay:**

- Qısqanclığın alt qatında duran səbəb itirmə qorxusudur. Əgər kimisə qısqanırıqsa, deməli, onu itirmək qorxumuz var. Lakin əsl sevgidə belə bir şey mümkün deyil, orda itirmə qorxusu olmamalıdır. Ölümə aparan qısqanclıq isə birbaşa psixoloji problemlə bağlıdır. Buna psixologiyada bağlılıq deyilir. Bu, nədən qaynaqlanır? Övladın 1 yaşından 5 yaşına kimi ana ilə emosional bağlılığı olur. O bağ 5 yaşında qopub 20-25 yaşında hansısa qadına bağlanır. Kişi həmin qadını başqalarına şərtsiz qısqanır, itirməkdən qorxur. Başqası ilə olması ehtimalını qəbul edincə, onu qətlə yetirir. Amma bu, sevgi deyil, bağlılıqdır. Sevgidə belə şey olmur. Müəyyən qədər qısqanmaq olar, amma onu da oturub söhbət etməklə, yoluna qoymaq mümkündür. Məncə, müəyyən qədər



qısqanmaq xoşagələndir.

**- Başqa ölkələrdə də xəyanət olur. Amma o ölkələrdə xəyanətlə qarşılaşan cütlüklərin böyük əksəriyyəti ayrılmağa üstünlük verir, nəinki öldürməyə...**

**Leyla İbrahimova: ”Kişini qətl törətməyə də elə cəmiyyət vadar edir”**

- Bizdə çox vaxt kişi özünü təsdiq etmək üçün cinayətə əl atır. Əgər xəyanət barəsində məlumat yayılıbsa, özünü biabır olmuş kimi hiss edir və qətl törətməklə, özünü təmizə çıxarır. Bununla da ”mən bir kişi kimi üzərimə düşəni elədim” demək istəyir. Əslində, o kişini qətl törətməyə də elə cəmiyyət vadar edir. Məhz cəmiyyət xəyanətlə bağlı dedi-qoduları yorulmadan müzakirə edir və nəticədə o kişinin beyni yorulur, qətl törətməkdən başqa çıxış yolu qalmır. O, hesab edir ki, bu qətli törətməklə, elin qınağından qurtarmış olur.

**Humay:**

- Öldürülən qadınların əksəriyyəti həyat yoldaşına xəyanət etməyənlərdi. Statistik göstəricilərdən də aydın olur ki, cinayətlərin əksəriyyətinin motivi xəyanətlə bağlı deyil. Sadəcə, qətli törədən şəxs özünü sığortalamaq üçün qadını ləkələməyə üstünlük verir. Daha çox oğlanlarda olan özünəinamsızlıq və ya özünütəsdiq hissi cinayətə gətirib çıxarır. Qadını öldürməyə əl atanların çoxunun ali təhsilinin olmadığını düşünürəm. Çünki dünyagörüşü yüksək olan şəxs daha həssas, daha düşüncəli olur. Təhsilli insan zorakılığa meyilli olmur.

**Heydər:**

- Bu, həm də etnik psixologiyadan irəli gəlir. Bizim bölgənin psixologiyası elədir ki, bir qadın bir kişiyə məxsus olmalıdır. Belə psixologiyaya görə, xəyanət varsa, öz adını təmizə çıxarmaq üçün bıçağa əl atmaq şərtdir.

**- Sizcə, zorakılıqdan ən çox əziyyət çəkənlər kimlərdir - qadınlar, uşaqlar, yoxsa cəmiyyət?**

**Turqay:**

- Sözsüz ki, uşaqlarımız. Qadın nə üçün döyüldüyünü dərk edir. Amma uşaq atasının anasını niyə döydüyünü dərk edə bilmir. Onun psixikası bunu qavramır və çox güman ki, bir müddətdən sonra belə uşaqların çoxu narkoman, cinayətkar olur, pis vərdişlərə qurşanır.

**- Cəmiyyətimiz həmin uşağı itirir və bir cinayətkar qazanır.**

**Turqay:**

- Təbii ki... Əgər o uşaq itirsə, ailələr də itir. Çünki bizdə bəzi ailələrin təməli təəssüf ki, uşaq üstündə qurulub.

**Humay:**

- Turqayın fikri ilə qətiyyən razı deyiləm. Çünki burada ən çox zərərçəkən qadındır. Qadın həm fiziki, həm də mənəvi zərbələr alır. Bundan böyük əziyyət? Nə qədər uşaq tanıyıram ki, uşaq evində böyüyüb, psixoloji zədə alsa da, təhsilini davam etdirərək, cəmiyyətdə öz yerini tutur. Amma zorakılığa məruz qalan xanımlar ya fiziki cəhətdən məhv olur, ya da aldıqları travmanı ömür boyu unuda bilmirlər. Bu baxımdan yanaşsaq, ən böyük zərər qadına dəyir.

**Adəm:**

- Zərər çəkənlərin bölgüsünü belə təsnifat edərdim: uşaq, cəmiyyət, qadın. Çünki o uşaq gələcəkdə yüksək vəzifə sahibi ola bilər. Təbii ki, uşaq vaxtı aldığı psixoloji zədənin təsiri vəzifə səlahiyyətlərini icra edərkən, özünü göstərəcək. Bundan isə ilk növbədə cəmiyyət zərər çəkəcək. Tarixdə belə nümunələr az olmayıb.

**- Bəs problemdən çıxış yolunu nədə görürsünüz?**

**Zeynəb Həşimzadə: ”Bunu ailədə əməlimizlə də göstərməliyik”**

- Məncə, uşaqlardan başlamalıyıq. Oğlan uşaqlarına qadının incə varlıq olduğunu, onları döyməyin yaxşı hərəkət olmadığını başa salmalıyıq. Bunu ailədə əməlimizlə də göstərməliyik. Həm də uşaqları döyüb, onları şiddətə alışdırmağa, zorakılığı onların gözündə adi bir hala çevirməyə son qoymalıyıq.

**Turqay:**

- Öncə beyinlərdə düşüncəni dəyişmək lazımdır. Amma bu o demək deyil ki, qadın və kişi bərabərhüquqludur. Hərəsinin boynuna düşən vəzifə var. Bərabərhüquqlu deyilən bir şey yoxdur. Necə ki, qız və oğlan uşaqlarını fərqli tərbiyə edirik.

**Nakibə Həsənova: ”Oğlanlara daha çox dəyər veriləndə, bugünkü mənzərə yaranır”**

- Turqayın dediyi ilə razılaşmıram. Təəssüflər olsun ki, ailələrdə oğlan uşaqlarına xüsusi diqqət yetirilir, üstünlük verilir. Nəticədə, həmin oğlanlar kiçik yaşlarından bacısı üzərində hansı hegemonluğa sahib olubsa, həyat yoldaşı üzərində də o hökmranlığı istəyir. Düzdür, qızı qız, oğlanı oğlan kimi böyütmək lazımdır, amma oğlanlara daha çox dəyər veriləndə, bugünkü mənzərə yaranır. Buna görə də qadınlarımızın döyülməsini istəmiriksə, ailədə kiçik yaşlarından qız uşaqlarını oğlan uşaqlarına əzdirməməliyik.

Digər çıxış yolu isə qadınları maarifləndirməkdən keçir. Qadın cəmiyyətdə özünü sərbəst şəkildə idarə edəcək səviyyəyə çatandan sonra ailə qurmalıdır.

**Leyla:**

- Bu cür ölümlərin səbəbkarı həm də qadının valideynləridir. Çünki heç kim ilk cəhddə xanımını öldürmür. Əksər vaxtlarda mütəmadi zorakılıqlardan sonra bu yola əl atılır. Hadisə baş verməmiş valideyn müdaxiləsi olmalıdır. Xüsusən də qızın valideynləri ona sahib çıxmalıdılar. Çünki heç bir qadın öz istəyilə onu təhlükənin gözlədiyi yerdə qalmaz.

**Heydər:**

- Cəmiyyətimizdə boşanmış qadına pis münasibət var. Qadın boşanıb, valideynləri qəbul etmir. Qalıb küçədə, hara gedəcəyini bilmir. Deməli, işgəncələrə dözən qadınlar fikirləşirlər ki, boşanandan sonra nə öz ayaqları üstə dura bilməyəcək, nə də valideynləri onu qəbul etməyəcək. Buna görə də çıxış yolu kimi ona qarşı edilən zorakılığa dözüb, ər evində oturmağı üstün tutur. Ər də beş-altı dəfə döyəndən sonra öldürür.

**Əminə Abbasova: ”Şəxsi sonradan dəyişmək daha çətindir”**

- Məncə, təhsildən öncə, uşaqlarımızın düzgün yöndə tərbiyə olunması əsas şərtə çevrilməlidir. Çünki cəmiyyətdə var olan şəxsi sonradan dəyişmək daha çətindir, nəinki əvvəldən o şəxsiyyəti istədiyin istiqamətə yönəltmək. Məncə, bu, problemdən daha asan çıxış yoludur.

**Humay:**

- Qız uşaqlarını güclü böyütməliyik. Qızlarımızı elə böyütməliyik ki, həm maddi, həm də mənəvi cəhətdən özünü müdafiə edə bilsin, kimdənsə asılı olmasın. Özünə hörmət edən və öz gücünə güvənən, özünü saxlaya bilən, mənəvi baxımdan da güclü olan qadın heç vaxt uşaqlarının qarşısında alçalmağa, döyülməyə razı olmaz.

**FOTOLARI çəkdi: Aygün ASİMQIZI**